# AZƏRBAYCAN RESPUBLİKASININ

# Q A N U N U

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654; Azərbaycan Respublikasının 2016-cı il 15 aprel tarixli 208-VQD nömrəli, 6 may tarixli 231-VQD nömrəli, 17 may tarixli 255-VQD nömrəli qanunları) 499.2-ci maddəsinin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"inzibati xətanın bilavasitə obyekti olan mallar və ya nəqliyyat vasitələri müsadirə edilir, yaxud vətəndaşlar həmin malların və ya nəqliyyat vasitələrinin dəyərinin yetmiş faizindən yüz faizinədək məbləğdə cərimə edilir, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər həmin malların və ya nəqliyyat vasitələrinin dəyərinin yetmiş faizindən yüz faizinədək məbləğdə cərimə edilir və ya Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılır.".

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2016-cı il
№ 300-VQD